# Azərbaycan hazırda aparıcı ölkələrin regionda əsas tərəfdaşlarından biridir

***COVİD-19 pandemiyasının ölkələr arasında sərhədlərin bağlanmasına, canlı ünsiyyətin dayandırılmasına səbəb olduğu indiki dövrdə müasir texnologiyalar vasitəsilə əlaqələrin qurulması ön plana keçib. Bu baxımdan, Azərbaycan yeni təşəbbüslərin müəllifi kimi çıxış edir. Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən iki mühüm beynəlxalq tədbirin – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşlərinin dünyanın aparıcı şirkətlərindən olan CISCO-nun müasir avadanlıqlarından istifadə edilməklə videokonfrans formatında təşkil olunması məhz bunun bariz ifadəsidir.***



Növbəti belə videokonfrans isə mayın 15-də adı çəkilən şirkətin təşəbbüsü ilə dövlətimizin başçısı İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında reallaşıb. Bu tədbirlər beynəlxalq ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirilib.

Azərbaycanda aparılan islahatları, o cümlədən, pandemiya dövründə koronavirusun təsirlərinin minimuma endirilməsi ilə bağlı keçirilən tədbirləri beynəlxalq qurumlar daim diqqət mərkəzində saxlayırlar. Nəticədə Prezident İlham Əliyevin siyasi iradəsi ilə reallaşan islahatlar bir tərəfdən regiondakı mövqeyimizin daha da möhkəmlənməsinə, digər tərəfdən isə ölkəmizin aparıcı dövlətlərlə münasibətinin güclənməsinə, əməkdaşlığın genişlənməsinə mühüm təsir göstərir. Bu baxımdan, ABŞ Prezidenti Donald Trampın dövlətimizin başçısına göndərdiyi məktub xüsusi diqqət çəkir. Eyni zamanda, həmin məktubda Azərbaycanın hazırda bütövlükdə enerji təhlükəsizliyinin formalaşmasına böyük töhfə verən ölkələrdən biri olduğu qeyd edilir.

ABŞ Prezidenti Donald Trampın sözügedən məktubunda Azərbaycanda həyata keçirilən, xüsusən son 30 ildə reallaşan iqtisadi və siyasi islahatlar da yüksək qiymətləndirilib. Bu, ondan xəbər verir ki, Azərbaycan aparıcı ölkələrin regionda əsas tərəfdaşlarından biridir. Regional tərəfdaş olaraq Azərbaycan bölgədə inkişafa və təhlükəsizliyə töhfə verir. Sözsüz ki, dünyanın aparıcı dövlətinin Prezidenti tərəfindən bunların qeyd edilməsi və iki ölkə arasında əməkdaşlığın yüksək qiymətləndirilməsi təqdirəlayiqdir. Bu, eyni zamanda, ondan xəbər verir ki, Azərbaycan Prezidentinin siyasi iradəsi və liderliyi sayəsində reallaşan islahatlar ölkəmizin regionda mövqeyinin daha da möhkəmlənməsinə gətirib çıxarıb. Pandemiya dövründə respublikamızda koronavirusun həm vətəndaşlarımızın sağlamlığına, o cümlədən, iqtisadiyyata, sahibkarlara, eləcə də işləməyən əhaliyə təsirlərinin minimuma endirilməsi ilə bağlı tətbiq edilən sosial-iqtisadi paketlər də dövlətimizin başçısının siyasi iradəsi və rəhbərliyi sayəsində reallaşıb. Bu, 4,7 milyondan çox insanın həmin paketdən faydalanmasını gerçəkləşdirib.

CISCO şirkətinin rəhbərləri ilə görüşdə də qeyd olunduğu kimi, Azərbaycanın həyata keçirdiyi tədbirlər ölkəmizin texnologiyaya açıq olmasından xəbər verir. Bu baxımdan, CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerin sözlərini xatırlatmaq yerinə düşər. Xanım Kramer deyib: “CISCO heyəti və Azərbaycan arasında keçirilən bu görüş çox səmərəlidir. Cənab Prezident, Sizin kimi liderin texnologiyaya belə açıq olması və onun ölkə üzrə tətbiqinə hazır olması məmnunedici haldır. Şadam ki, CISCO bu sahədə Sizinlə əməkdaşlıq edir və hesab edirəm ki, qeyd etdiyimiz məsələlərin icrasını sürətləndirə bilərik. Bu əməkdaşlığın davamlı olmasını arzulayıram. Siz təkcə regionda deyil, dünya çapında texnologiyaya dəstək verən liderlərdənsiniz və bu işdə öndə getdiyinizə görə Sizə təşəkkür edirəm”.

Bu fikirlər Azərbaycanın regional mövqeyinin yüksək olduğunu bir daha təsdiq edir. Eyni zamanda, bu, ondan xəbər verir ki, Azərbaycan postpandemiya dövründə xarici investisiyanın cəlb edilməsi yolu ilə həm innovativ, həm də qeyri-neft sektorunun inkişafının daha da stimullaşdırılmasını həyata keçirəcək. Artıq mövcud iqtisadi paketdə postpandemiya dövründə sahibkarlar üçün vergi güzəştləri, güzəştli kredit də daxil olmaqla kifayət qədər böyük təşviq imkanları təklif edilir. Biz postpandemiya şəraitində Azərbaycanda sahibkarlara dəstəyin daha da gücləndirilməsini, bütövlükdə yeni iqtisadi modelin tətbiqini müşahidə edəcəyik. Bu dövrdə yeni iqtisadi model dövlətimizin başçısının rəhbərliyi və siyasi iradəsi sayəsində reallaşacaq. Bu isə o deməkdir ki, Azərbaycan postpandemiya şəraitində iqtisadi fəallığı daha qısa zamanda reallaşdırmaq və pandemiyanın təsirlərini az bir müddət ərzində minimuma endirmək, bütövlükdə region üçün yeni iqtisadi model təqdim etmək imkanlarına malik olacaq.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2020.- 19 may.- S.2.